Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 180 (2028) 14 dekabr 2019-cu il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

# Vətən həsrəti ilə çırpınan qəlb - rəssam İbrahim Səfi



**(əvvəli ötən sayımızda)**

**Dünya şöhrətli rəssam Almaniya, İtaliya, Avstriya, Yunanıstan, Fransa, İsveçrədə açdığı fərdi sərgiləri ilə dünya rəssamlıq tarixinə öz hədiyyəsini vermişdir. Portret, mənzərə, natürmort, süjetli tablo və s. Sənətşünaslar onun əsərlərindəki rəng və bədii ifadə vasitəsinə görə onu ”NeoRembrant” axınının və həmçinin Türkiyədə rus realizminin nümayəndəsi hesab etməklə yaradıcılığında impressionizm ənənələrinə güclü meyllər olduğu söyləyirlər.**



Rəssamın qalın rəng mozaikasından yoğrulmuş portretlərdə psixoloji məqamlar çox güclüdür. Bu xüsusilə rəssamın sadə insanların portretlərində - çəkməçi, küçə musiqiçisi, namaz qılan qadın, kəniz, qadın porteti və s. duyulur. Tabloların rəng həlli rəssamın keçirdiyi hiss duyğularının ünvanını dəqiq şərtləndirir.

”Ən yaxşı müəllim təbiətdir, rəssamın müəllimi təbiətin özündədir” - deyən rəssamın əsərlərinin böyük bir hissəsinin mövzusunun təbiətdən alınması bir təsadüf deyildir. Təbiətdən dəyişməyən və hər zaman insanın qəlbini xoş arzularla dolduran bir şey varsa, o da ağacdır, güllərdir, dağlardır, dənizdir. Bəlkə də elə ona görə də İbrahim Səfi natürmortlarında saysız gül və çiçək çəkmişdir. Bu çiçəklərin rəngarəngliyi, parlaq boyaları insanda ilıq, həzin və xoş hisslər oyadır.

Bir çox rəngkarlıq lövhələrində rəngli cizgilərin qəribə ritmindən ortaya çıxan romantik ovqat seyirçini ilk baxışdan özünə cəlb edir. Ibrahim Səfini türk təsvir sənətinin postimpressionist cərəyanına ən layiqli tohfə verən sənətkarlardan hesab etmək olar.

Ibrahim Səfinin əsərlərinin xronologiyası onun həyat yoludur. Rəssamın sənətdəki inkişafını, onun rəngkarlıq manerasını formalaşdıran mərhələləri ardıcıl izlədiyimiz zaman görə bilərik. O, işığın yardımı ilə obrazlarının simasında əsas olanı vurğulamağa çalışmışdır. İbrahim Səfi ”Atatürkün potreti”, ”Sariyer börekçisi, ””Kişi potreti”, ”Musiqiçi Hafizin potreti”, ”Avtoportret”, ”Kəniz”, ”Namaz qılan qadın”, ”Qadın portreti” əsərləri, insan təsvirləri ilə yanaşı neçə-neçə taleyi, xarakteri, hissləri, duyğuları kətan üzərinə köçürmüşdür.

Onun əsərlərində çalışma əsnasında meydana gələn davamlı şəkildə yeni düşüncə və görüntülər arasındakı bağlantı hiss olunmaqdadır. İbrahim Səfinin əsas mövzusu ”İnsan”dır. Dünyaya insan baxışı, insan duyğuları, yaşantıları, sevinci, kədəri... realist bir tərzdə anladılan ”İnsan”.

Sənətçinin rəng koloriti əsasən canlı və parlaqdır. Xüsusilə 1960-70-ci illərdən sonra işlənmiş rəsmlərində daha canlı və parlaq rəngə üstünlük verilmişdir. Canlı və soyuq rənglərin əks etdirdiyi hərarət və işığı, bu rənglərə ağırlıq verən məna təzadı insanı öz təsiri altına alır.

Müxtəlif sənət cərəyanlarına, dünya rəsm axarının inkişaf xüsusiyyətlərinə, təzadlı rəssamlıq üslublarına yaxından bələd olan Ibrahim Səfini türk təsviri sənətinin postimpressionist cərəyanına ən layiqli tohfə verən sənətkarlardan hesab etmək olar. Bəzi mənzərə və natürmortların şux, şəffaf koloriti, rənglərin oynaqlığı onu fransız impressionistlərinə yaxınlaşdırır, impressionizmin naturaya gətirdiyi işığa, parlaqlığa, kolorit gözəlliyinə aludəçiliyini göstərir. ”İstanbul”, ”Sokak”, ”Burqaz adası tərəfdən Anadolu sahillərinin görünüşü”, ”Bursa dağında düzənlik”, ”Bosfordan bir mənzərə”, ”Qış mənzərəsi”, ”Anadolunun görünüşü” və s. əsərləri rəng ahəngi ilə zəngindir.

Sənətdə öz prinsipləri, mükəmməl biçimi olan sənətçinin son illərdəki əsərlərində olan yeni xüsusiyyətlər çeşidli mövzularda meydana çıxır. Rəssam dayanmadan, sağlamlığına rəhm etmədən çalışır. İbrahim Səfi minlərlə tablo yaradır. O, nadir rəssamlara xas ürək genişliyi ilə əsərlərini dost və tanışlarına hədiyyə edir. Və nə yaxşı ki... Çünki bunun sayəsində İbtahim Səfi hədiyyəsinin sahibləri bu gün rəssama minnətdarlıq hissi olaraq bu əsərləri mütəmadi dünya sənətsevərlərinin seyrinə verir, bununla da rəssamın ruhunu şad edirlər.

1975-80-cı illərdə İbrahim Səfi görmə qabiliyyətini getgedə itirir. O, çox vaxt əsərlərində tarixi göstərmirdi. Onların hansı illərdə işlənildiyini rənglərdən, onların yaxmalarından təyin etmək olur. 4 yanvar 1983-cü ildə Oda Kule İş Mərkəzinin art salonunda açılan yüzüncü fərdi sərgisinin açılış axşamı böyük usta həyata vida etmişdir.

Türkiyədə, həmçinin Fransa, Avstriya, ABŞ, İsveçrə və s. ölkələrdə fərdi sərgiləri nümayiş etdirilmiş İbrahim Səfi yaradıcılığı bu gün o qədər aktualdir ki... Bu rəssamın yaradıcılığının ucalığından xəbər verir. İbtahim Səfini Azərbaycan xalqına tanıdan, onun yaradıcılığı haqda ilk məqalə yazan görkəmli alimlərimiz Abbas Zamanov və Mürsəl Nəcəfov olmuşlar. Onlar rəssam haqda tədqiqatları ilə digər sənətşünaslara yol açmışlar. Daha bir təqdirəlayiq fakt olaraq bildirmək istərdim ki, İbrahim Səfinin yaradıcılığı artıq külliyyat halında araşdırılmaqdadır. Naxçıvan Rəssamlar Birliyinin rəhbəri Ülviyyə xanım Həmzəyeva ”İbrahim Səfinin yaradıcılığının özünəməxsus xüsusiyyətləri” adlı mözvü üzərində dissertasiya işi yazır.



IBRAHIM SAFI (1898-1983)

Ümüdvaram ki, Ülviyyə xanımın bu elmi işi rəssamın qarşıdakı 125 illik yubileyi üçün böyük hədiyyə olmaqla bütövlükdə Azərbaycan mədəniyyətinə böyük töhvə verəcəkdir. Ümid edirem ki, gələcəkdə biz İbrahim Səfinin ev müzeyinin aşılışında iştirak edəcəyik, onun irsini yaşadacayıq. O xatirimizdən silinməyəcəkdir.

İbrahim Səfinin mənzərə, portret və natürmortlardan ibarət bəzi əsərləri Nizami adına Azərbaycan Ədəbiyyatı muzeyinə bağışlanmış, bir neçə əsəri isə 1989-cu ildə Bakıda keçirilən ”Əzizim vətən yaxşı...” sərgisinin ekspozisiyasına daxil edilmişdir. Əsərləri Türkiyədə və dünya muzeylərində, o cümlədən şəxsi kolleksiyalarda, R.Mustafayev adına Azərbaycan İncəsənət Muzeyində saxlanılır. 2018-ci ildə Azəybaycanın İstanbuldakı baş konsulluğunun təşəbbüsü və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki nümayəndəliyinin himayədarlığı ilə İstanbul şəhərinin Bəyoğlu ərazisində yerləşən məşhur ”İstiklal Caddesi”nin görkəmli hissəsindəki binanın üzərinə İbrahim Səfinin xatirə lövhəsi vurulmuşdur.

**Bu məqaləni yazdığım müddət əqzində məni bir hiss tərk etmirdi. Mənə elə gəlirdi ki, bütün bu vaxt ərzində İbrahim Səfi ilə səmimi söhbət edir, vətən həsrəti çəkən vətən oğlunun iztirablarını, qəlb yaralarını hiss edirdim, əsərlərindən baxan titrək baxışlı qəhrəmanlarla daşışırdım, tablolarında ana yurdunu xatırladan təbiət mənzərələrini görürdüm. Amma söhbətimizi xoş bir notla bitirdik düşünürəm. Ana torpaq Səni heç vaxt unutmaz, Sən əsərlərində yaşayirsan Uca Rəssam! Ruhun şad olsun, İbrahim Səfi! Vətəndən ayrı yaşasan da, ürəyin Vətən həsrəti ilə çırpındı, fırçan Vətən sevgisi ilə yaratdı!**

**Ülkər Veysəlli,**
**Sənətşünaslıq üzrə**
**Fəlsəfə doktoru**